Adımız məfkurəmizdir

9-15 fevral 2021-ci il

# Türküstan

www.turkustan.info

## Müsahibimiz Türkiyədə yaşayan siyasi elmlər üzrə doktor Orxan Vəlidir

*Dosye:* ***Orxan Vəli 1987-ci ildə Göyçə mahalında doğulub. 1988-ci ildə ailəsi Gəncəyə köçüb. Orta təhsilini 1994-2005-ci illərdə Gəncədə alıb. 2005-2009-cu illərdə Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında bakalavr pilləsi üzrə oxuyub. 2009-2010-cu illərdə hərbi xidmətdə olub. 2012-2014-cü illərdə Bakıda Prezident Yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya kafedrasında magistr, 2015-2020-ci illərdə Türkiyə dövlətinin təqaüdü hesabına Sakarya Universitetinin Siyasi Elmlər fakültəsinin Siyasi Elm və Dövlət İdarəçiliyi kafedrasında doktorantura təhsili alıb. Ötən ilin iyul ayında "Çarlık Dönemi Azerbaycanı'nın Uluslaşma Süreci: 1850-1920" başlıqlı elmi işini müdafiə edib, siyasi elmlər üzrə fəlsəfə doktorluğu dərəcəsini qazanıb. Doktorantura dövründə qısa müddət Qərbi Kaspi Universitetinin Siyasi Elmlər və Beynəlxalq Münasibətlər kafedrasında işləyib. Bu yaxınlarda "Türkiye Notları Yayınevi"ndə "Azerbaycan'da Milliyetçilik" adlı kitabı işıq üzü görüb.***

# Orxan Vəli: "Zəfərimiz milli kimliyin inşasının tamamlanmağı üçün yetkin fürsətdir"

əvvəli ötən sayımızda

Dil haqqında islahat layihəsi hazırlayıb, Tehran və İstanbulda dəstək axtarıb. Bu səbəblə Axundzadənin dövrünün digər aydınları ilə müqayisədə önə çıxdığını gördüm. Milli hərəkatın B mərhələsi üçün mütaliə edərkən Əli bəy Hüseynzadədən başqasını seçməyin haqsızlıq olacağına qərar verdim. Belə ki, "Türklər kimdir, kimlərdən ibarətdir" (1905) məqaləsi milli hərəkat konteksində kimlik (türkçülük) ehtiyacını sistemli şəkildə dilə gətirən ilk əsərdir. Bununla bərabər Hüseynzadənin yaratdığı ədəbi mühit, rəhbərlik etdiyi mətbu orqanlar modern vətən anlayışının formalaşmağına xidmət edib. Bunun üçün Hadinin "Füyuzat"dakı şeirlərinə baxmaq kifayətdir. Milli hərəkatın son mərhələsində isə Məhəmmədəmin Rəsulzadənin mətnləri diqqət çəkir. Xüsusən "Milli Dirilik" (1914) başlıqlı məqalələr seriyası Azərbaycan millətçiliyinin ilk mətni hesab edilə bilər. Xülasə sadaladığım aydınların seçildiyini, həlledici olduğunu ifadə edə bilərəm. Cümhuriyyətin elanı ilə bəyannamədə də ifadə edildiyi kimi xalq qazanmalı idi. Ancaq beynəlxalq konyuktura gənc cümhuriyyətə bu imkanı vermədi. Bununla belə bütöv bir dəyərləndirmə apardığımız zaman yenə qazananın Azərbaycan xalqı olduğunu ifadə etmək mümkündür. Vətəndaşı olduğumuz Azərbaycan Respublikası özünü birinci cümhuriyyətin varisi hesab edir. Deməli, Azərbaycan xalqı uzun perspektivdə qazanan olub.

**- Məhəmmədəmin Rəsulzadənin bu dövrdəki görüşləri müxtəlif mərhələlərdən keçib. Fikrinizcə, Rəsulzadənin hümmətçilikdən ayrılmasındakı qırılma nöqtəsi harada oldu?**

- Məhəmmədəmin Rəsulzadə bəhsinə toxunmadan əvvəl icazənizlə 1903-1920-ci illər arasında qələmə aldığı məqalələrini kitab halında nəşr edən məzunu olduğum Bakı Dövlət Universitetinin mərhum mənsubu Şirməmməd Hüseynovu rəhmətlə yad edim. Şübhəsiz, məqalələr bugünkü oxucunun daha asan oxuya bilməsi üçün təkrar redaktə edilməlidir. Ancaq yüzlərlə məqaləni kitab halına gətirə bilmək müstəsna bir xidmətdir. Ruhu şad olsun. Qayıdaq sualınıza. Türkiyənin gəncliyində kommunizmə meyl etmiş şairi İsmət Özəl müsahibələrinin birində "mən kommunist ikən hədəfim nə idi isə bu gün də hədəfim odur" cavabını verir. Bu mənada Axundzadədən fərqli olaraq dövlət təcrübəsi olmayan, hətta ali təhsilini belə tamamlaya bilməyən Rəsulzadənin aktiv siyasətlə məşğul olmağa başlayandan eyni hədəfdə olduğunu ifadə etmək mümkündür. Yəni onun üçün "Azərbaycan davası" əsas məsələ idi. Müstəmləkə altında olan "kiçik millət"in mənsubu olduğundan asılı olaraq ideoloji axtarışda olub. Çox erkən yaşlardan etibarən aktiv ictimai-siyasi fəaliyyətlə məşğul olmağa başlayıb. Rəsulzadənin həm İran, həm də Türkiyə təcrübəsi olub. Bir çox tədqiqatçı Əfqaninin təsirindən bəhs edib. Ancaq Balkan müharibəsi və Birini Dünya müharibəsinin Rəsulzadənin düşüncəsinin formalaşmağında əhəmiyyətli təsiri olub. Bununla bərabər Rəsulzadənin İstanbulda olduğu dövr eyni zamanda türkçülüyün/millətçiliyin də özünü göstərdiyi dövr idi. Türk Ocağı, "Türk yurdu" jurnalı həmin dövrdə təsis edilmişdi. Bununla bərabər Rəsulzadə siyasi/milli görüşünü Azərbaycan konteksində formalaşdırdı. Xülasə Balkan müharibəsi Rəsulzadəyə dövrün millətlər dövrü olduğunu göstərdi. O səbəblə milli dirilikdən yana oldu.

**- Azərbaycan Cümhuriyyətinin elanını Axundzadədən başlayan maarifçilik, millətçilik hərəkatının yekunu kimi dəyərləndirmək mümkündür. Sizin elmi qənaətinizə görə, Cümhuriyyət tamamlanmamış millidövlətdir. Bu hipotezinizi necə əsaslandırmısınız?**

- İfadə etdiyiniz kimi Cümhuriyyət Axundzadənin maarifçi xidmətləri ilə başlayan uzun milli hərəkatın nəticəsində hasil olub. Cümhuriyyətin tamamlanmamış bir milli-dövlət olaraq ifadə etməyin iddialı bir addım olacağının fərqində idim. Ancaq tədqiqatımın sonunda əldə etdiyim nəticəni olduğu kimi yazmaqdan başqa çarəm yox idi. Məlum olduğu kimi modern dövlət hüquqla bərabər zikr edilməkdədir. Yəni milli-dövlətlər varlıqlarını hüquqi sənəd olan konstitusiyaya əsaslandırmaqdadır. Konsititusiya modern dövlətlər üçün ictimai müqavilə mətni vəzifəsini icra edir. Cümhuriyyət Tiflisdə 6 maddəlik İstiqlal Bəyannaməsiylə elan edildi. Bəyannamə qəbul edilməyi planlanan konstitusiya üçün baza mətni olaraq qəbul edilə bilər. Belə ki, bəyannamə yeni bir dövlətin yaradılmağı haqqında qurucularının - aralarında liberallar, millətçilər, islamçılar var idi - ortaq iradəsini bəyan edən hüquqi bir mətn idi. Ancaq milli-dövlətin, millətin, milli kimliyin inşasının tamamlanmağı isə dövlət yarandıqdan sonra mümkün olacaq bir hadisə idi. Çünki dövlətin, millətin, dilin və s. adını müəyyənləşməyi üçün yeni bir ictimai müqavilə (konstitusiya) imzalanmalı idi. Misal üçün modern dövrdə konstitusion (hüquqi) olaraq milli kimliyini türklük əsasında inşa edən ilk və tək dövlət Türkiyə Respublikasıdır. Cümhuriyyət isə xalqının milli kimliyini müəyyən edəcək ictimai müqaviləni tamamlaya bilmədi. Bu günə qədərki tədqiqatlar adətən tarixçilər tərəfindən aparılıb, çox qiymətli əsərlər ortaya çıxıb. Tədqiqatım müddətində həmin əsərlərlə tanış oldum, oxudum, bəhrələndim. Tarixi tədqiqat bu xüsusa toxunmaya bilər. Cümhuriyyəti siyasi elm konteksində təhlil etdiyimizdə tamamlanmadan yarımçıq qaldığını görmək mümkündür. Müqayisə üçün deyim ki, Azərbaycan milləti, milli kimliyinin formalaşmağı üçün müstəqillik sonrasında qəbul edilən konstitusiya mühüm bir addım olmaqla bərabər İkinci Qarabağ müharibəsində əldə edilən zəfər isə bu prosesi daha yetkinləşdirmək üçün müstəsna bir fürsətdir. Xülasə birinci Azərbaycan Cümhuriyyəti modern Azərbaycanın siyasi tarixinin başlanğıc mərhələsidir. Bu səbəblə də təqdirəlayiq bir tarixdir. Bununla bərabər tamamlanmamış bir mərhələdir. Milli hərəkatın xülasəsini təqdim etdiyim bu cədvəldə görə bilərik.

**- Sovet Azərbaycanı dövründə millətçilik hansı formada inkişaf etdi? 1988-ci il Meydan hərəkatı Azərbaycan milləti anlayışının tamamlandığını göstərirmi?**

- Daha əvvəlki sualınıza cavabımda Cümhuriyyət dövründə milli kimlik siyasətinin tamamlanmamış qaldığını ifadə etdik. Əsaslandırmamı Konstitusiyanın üzərində qurdum. Konstitusiya isə həm hüquq, həm də siyasət anlayışlarını ehtiva edir. Bununla bərabər Cümhuriyyəti quran millətçi aydınlar 1930-cu illərin sonuna qədər modern milli kimliyin, millətin təxəyyül edilməyində əsas rol oynayan mətbuat və ədəbiyyat sahəsində üstünlüyü mühafizə ediblər. Bu səbəblə tarixçilər Sovet dövrünün ilkin mərhələsində türklük vurğusunun olduğunu təkidlə ifadə edirlər. Texniki olaraq doğru ifadədir. Ancaq mahiyyət başqadır, əlbəttə. Bununla bərabər Cümhuriyyətin elan edilməyi və 23 ay da olsa yaşaması Sovet dövründə Azərbaycana SSRİ tərkibində muxtar bir kimliklə bərabər rus dilinin "kölgəsi"ndə də olsa, Azərbaycan dilini yaşatmaq imkanı verdi. Yəni Sovet dövrü ilə Çarlıq dövrünü müqayisə etdiyimizdə Sovet dövründə artıq millət şüurunun varlığını görmək mümkündür. Şübhəsiz, burada milli hərəkat dövrü və 23 aylıq Cümhuriyyət aydınlarının xidməti olub. Mən birinci Azərbaycan Cümhuriyyətinə aparan yolu epistemik azlıqların (aydınların) millət və dövlət yaratma prosesi olaraq ifadə edirəm. Bu mənada Türkiyədə nəşr edilmiş və hazırda Milliyyət Araşdırmalar Mərkəzi tərəfindən Azərbaycan dilinə tərcümə edilən bir məqaləmi mənbə olaraq göstərə bilərəm. (Valiyev, O. (2020). Milletini ve Devletini Arayan Bir Etnik Grup: Azerbaycan Örneği. Uluslararası Politik Araştırmalar Dergisi, 6(1), 1-15.) Bu mənada Meydan hərəkatını dövlətin müstəqilliyi üçün mübarizə olaraq ifadə etmək olar. Onu ikinci cümhuriyyətə aparan milli hərəkat olaraq da ifadə edə bilərik. Ancaq Meydan hərəkatının Azərbaycan milləti anlayışının tamamlanma prosesi olaraq ifadə etmək doğru olmaz. Əvvəla hərəkatın tərkibində bir ideologiyanın mütləq hakimiyyəti olmayıb. Digər tərəfdən hərəkat Azərbaycan milləti anlayışını və ya milli kimliyin inşasını tamamlamaq prosesinin başlanğıcı olub. Yəni müstəqilliyə aparan yol. XIX əsrin ortalarından başlayıb 1918-ci ildə cümhuriyyəti doğuran milli hərəkatla müqayisə etmək olar. Bu mənada milli kimliyin tamamlanmağı günümüzə qədər davam edəcək uzun bir prosesi ehtiva edəcəkdir. Xülasə Meydan hərəkatı müstəqilliyə aparan yol olaraq ifadə edilə bilər. Vətən müharibəsində əldə edilən zəfər isə Azərbaycan milləti anlayışının, milli kimliyin inşasının tamamlanmağı üçün yetkin bir fürsətdir.



**- Elə bununla bağlı sual vermək istəyirdim. I Qarabağ savaşındakı məğlubiyyətimiz xalqımızda bir əziklik duyğusu yaratmışdı. 44 günlük qələbəmiz millət olmada hansı üstünlükləri qazandırdı?**

- SSRİ-nin tarixə qarışması Azərbaycan xalqına müstəqillik qapısını açdı. Lakin ilk Qarabağ müharibəsində torpaqların 20 faizə yaxınının işğal edilməsi, Xocalı faciəsi müstəqil Azərbaycan xalqına millət olmaq yolunda ciddi maneə oldu. Bu mərhələ geridə qaldığı üçün çox toxunmaq istəmirəm. İkinci Qarabağ müharibəsi ifadə edildiyi kimi "Vətən Müharibəsi" idi. Belə ki, əldə edilən qələbə bir neçə baxımdan əhəmiyyətlidir. Birincisi, ilk dəfədir ki, Azərbaycan ordusu bir müharibəyə girdi və qələbə qazandı. İkincisi, əldə edilən qələbə Azərbaycanın İran və Rusiya ilən olan münasibətlərinin mahiyyətinə də təsir edəcəkdir. Üçüncüsü, beynəlxalq iclaslarda artıq Azərbaycan rəsmiləri daha fərqli bir diskursu mənimsəyəcəkləri kimi, fərqli münasibət də görəcəklər. Ən əsası əldə edilən qələbə daxildə Azərbaycanın milli kimlik inşasını tamamlamaq üçün, yəni Azərbaycançılıq (Azərbaycan millətçiliyi) müqaviləsini bağlamaq üçün tarixi fürsətdir. Bilirsiniz ki, Qarabağ Azərbaycan xalqının kollektiv hafizəsində xüsusi əhəmiyyət kəsb edir. Orduya Şuşanın azad edilməsi üçün verilən təkidli əmr bunun bariz nümunəsidir. Şuşa həm Qarabağda Azərbaycan dövlətinin, xalqının siyasi yaddaş mərkəzidir, həm də Azərbaycan mədəniyyətinə kanonik şəxsiyyətlər verən mədəniyyət mərkəzidir. Bunun ən dəyərli nümunəsi, şübhəsiz Üzeyir Hacıbəylidir. Bəlkə, ömrünün sonuna qədər Üzeyir bəyin Şuşaya qayıdan büstünü görə bilməyəcəyini düşünən adamlar da bu hadisəyə sevindilər. Çünki Azərbaycan xalqının ortaq dəyəridir. Zənnimcə, belə yekunlaşdırmaq olar: Əvvəlcə əsgər Şuşaya daxil oldu, sonra siyasət-dövlət Şuşaya qayıtdı. Artıq bir daha ayrılmamaq məqsədilə xalqın qayıtmağı üçün hazırlıqlar aparılır. Şuşada dalğalanan Azərbaycan bayrağı bizə "Qarabağ Azərbaycandır" demək haqqını verir!

**- Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan münasibətlərinin indiki halı gələcək üçün nə vəd edir? On noyabrdan sonrakı hadisələri necə analiz edirsiniz?**

- İbn Xəldun coğrafiyanın qədər olması tezisini əsrlər əvvəl ifadə edib, bu gün də elm insanları tərəfindən istifadə edilməkdədir. Məramımı 2008-ci ildə Gürcüstanın sabiq Baş nazirinin coğrafiyasını unuduraq atdığı "emosional" addımın gürcü xalqı üçün qiymətini xatırladaraq izah edim. Azərbaycan hər şeydən əvvəl bir Qafqaz ölkəsidir. Belə olduğu halda Rusiyanı (coğrafiyamızı) diqqətə almaq, hesablaşmaq zərurəti ortaya çıxır. Azərbaycan uzun illər bu səpkidə təmkinli siyasət izlədiyi üçün ikinci müharibədə qələbə əldə edərək torpaqları işğaldan azad etdi. Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan arasındakı münasibətlərin aqibətini Rusiya ilə Türkiyə əlaqələrinin gələcəyi, Ermənistanın ortaq imzalanan mətnə sadiq qalıb-qalmayacağı müəyyən edəcək. Əlbəttə, hazırda "xaos" içərisində olan beynəlxalq siyasətin alacağı yönün də təsiri olacaq. Ancaq müharibədən sonra rəsmi Bakının, Ankaranın və Moskvanın mövqeyi Ermənistan tərəfini də ciddi pozuntulara yol verməkdən çəkindirir. Əlbəttə, Azərbaycan xalqı üçün hazırkı vəziyyət tam arzu edilən deyil. Lakin modern siyasi tarixə nəzər salsaq görərik ki, münaqişələr asanlıqla sonlandırılmır. On noyabrdan sonrakı hadisələri əvvəlcə əsgərin, sonra isə siyasətin-dövlətin və nəhayət, xalqın Qarabağa qayıdışı olaraq qiymətləndirirəm. Azərbaycan uzun perspektivdə qazanan tərəf olacaq. Azərbaycan əldə etdiyi hərbi zəfəri Ermənistanı blokadaya salmaq yerinə, yarana biləcək potensial iqtisadi birliyə daxil edərək, yəni paylaşaraq məsələni həll etmək niyyətində görünür. Xülasə, on noyabrda imzalanan atəşkəs mətni Azərbaycan tərəfi üçün əldə etdiyi zəfəri təsdiq etmək sənədidir. Ermənistan Azərbaycanın tələblərini yerinə yetirəcəyi təqdirdə qazanan tərəf ola bilər.



**- Orxan bəy, elmi fəaliyyətinizi Türkiyədə davam etdirmək istəyirsiniz, yoxsa Azərbaycana qayıdıb buradakı universitetlərin birində çalışmağı seçəcəksiniz?**

- Məncə, müsahibənin ən kritik sualını sona saxlamısınız (gülür). Arzum Bakıya qayıtmaq, oradakı universitetlərin birində çalışmaqdır. Doktorantura dövründə Bakıda qısa təcrübəm oldu. Həmin universitetlərdə dərs dediyim tələbələrimdən bəziləri ilə hələ də əlaqəmi davam etdirirəm. Doktor dərəcəsini aldıqdan sonra Bakıda bir neçə universitet ilə əlaqə saxlamışam. Ancaq hələ ki müsbət nəticə ala bilməmişəm. Halbuki Türkiyədə bir çox dəyərli professor tədqiqatımın müvafiq sahədə elmi ədəbiyyata töhfə olduğunu, Türkiyədə davam etməyimi təklif edirlər. Mən isə ümid edirəm ki, tədqiqatlarımı Bakıda davam etdirəcəyimlə bağlı təklif alacağam. Şübhəsiz, Bakıda axtarışım müsbət nəticələnməyəcəyi təqdirdə Türkiyədə qalacağam. Bütün hallarda tədqiqatımı davam etdirməliyəm.

**Söhbətləşdi:**
**Dilqəm ƏHMƏD**

Oxu, oxut, abunə ol!